

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 31 (20.932)

18 fevral 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 17-də Bakıda Milli Gimnastika Arenasında tikinti işlərinin gedişi ilə tanış olmuşlar.

Gənclər və idman naziri Azad Rəhimov arenada görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, kompleksin fasadı xüsusi formada işlənmişdir. Burada maraqlı illüminasiya elementlərini təqdim edən ekranlar quraşdırılmışdır. Əsasən gimnastika yarışları üçün nəzərdə tutulan arenanın əhəmiyyətini artıran mühüm amillərdən biri də buranın digər idman tədbirlərinin və yarışlarının keçirilməsi üçün uyğunlaşdırılmasıdır. Yarışların miqyasından asılı olaraq, arenanın əsas hissəsində oturacaq yerlərinin sayını 5 mindən 9 min 600-ə qədər artırmaq mümkündür. Dünya standartlarına uyğun inşa olunan kompleksdə mətbuat mərkəzi, ilk tibbi yardım məntəqəsi, xoreoqrafiya, trenajor zalları, dopinq nəzarəti, inzibati otaqlar, mağazalar, kafelər və digər yardımçı sahələr yerləşir.

Diqqətə çatdırıldı ki, Milli Gimnastika Arenasında bu ilin iyununda bədii gimnastika üzrə Avropa çempionatının keçirilməsi nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ayrıca inşa edilmiş məşq zalında yaradılan şəraitlə tanış oldular. Dövlətimizin başçısı və xanımı burada gimnastların məşq prosesini izlədilər. Məşq zalında idmançılar üçün hər cür şərait yaradılmışdır.

Dövlətimizin başçısına və xanımına milli yığmanın forması təqdim olundu.

## Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı İdarə Heyətinin iclası keçirilmişdir

Fevralın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun sədrliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı İdarə Heyətinin 2013-cü ildəki fəaliyyəti və qarşıda duran vəzifələrlə əlaqədar iclası keçirilmişdir.

İclasda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimovun hesabat məruzəsi dinlənilmişdir.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov və Yeni Azərbaycan Partiyası universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Kamal Camalov çıxış etmişlər.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbov tapşırıq və tövsiyələrini verərək demişdir: "2014-cü ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi tamam olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2013-cü il dekabrın 28-də keçirilən dördüncü çağırış səkkizinci sessiyasında 2014-cü il muxtar respublikada "Muxtariyyət ili" elan olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 yanvar tarixli Sərəncamına əsasən, muxtar respublikanın 90 illik yubileyi dövlət səviyyəsində keçiriləcəkdir. Bu baxımdan 2014-cü il digər sahələr kimi, partiya fəaliyyəti sahəsində də tələbkar və məsuliyyətli bir dövr olacaqdır. Cari ildə də siyasi, ideoloji və təşkilati fəaliyyətimiz davam və inkişaf etdirilməli, vəzifələr icra olunmalıdır. Yeni Azərbaycan Partiyasının rəhbəri, ölkə Prezidenti cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının Beşinci Qurultayında partiyanın və onun hər bir üzvünün qarşısında duran əsas vəzifələrdən danışaraq demişdir: ***"Bizim bütün istiqamətlər üzrə konkret proqramlarımız, planlarımız, konsepsiyalarımız, icra mexanizmlərimiz vardır. Yəni bizim gələcək inkişafımızla bağlı heç bir tərəddüdümüz, heç bir şübhəmiz yoxdur. Azərbaycan inamla, uğurla irəliyə gedəcəkdir. Bunu təmin etmək üçün Azərbaycanda Heydər Əliyev siyasəti bundan sonra da daim üstünlük təşkil etməlidir".***

Yeni Azərbaycan Partiyası muxtar respublika təşkilatının Sədri demişdir: "Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatı partiyamızın tarixən ilk yaranmış siyasi qurumu kimi nümunə gücündə olmalı, 2014-cü ildə fəaliyyətini daha da gücləndirməlidir. "Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının 2014-cü ilə dair İş Planı"nda nəzərdə tutulmuş tədbirlər vaxtında və dürüst icra olunmalı, İcra Katibliyi, Gənclər Birliyi, şəhər və rayon partiya təşkilatları öz fəaliyyətlərini buna uyğun qurmalıdırlar. "Muxtariyyət ili" ilə əlaqədar partiya təşkilatlarının xətti ilə tədbirlər hazırlanmalıdır.

Şəhər və rayonlarda partiya təşkilatları üçün binalar istifadəyə verilib. Həmçinin kənd mərkəzlərində də ilk partiya təşkilatları üçün nümunəvi iş otaqları yaradılmışdır. Yaradılanların qorunması ilə yanaşı, onlardan səmərəli istifadəyə də diqqət artırılmalıdır. Kənd mərkəzləri ideya, siyasi və təşviqat işləri üçün mərkəz kimi öz statuslarını möhkəmləndirməlidirlər. Çox vaxt ideoloji işin kabinetlərdə keçirilməsinə üstünlük verilir ki, bu da işin səmərəsini aşağı salır. Təbliğat işi yerlərə, insanlara doğru getməlidir".

Bildirilmişdir ki, nəzəri biliklərə yiyələnmədən ideoloji işi təşkil etmək mümkün deyil. Özünü partiya işinə həsr edən üzvlər daim nəzəri biliklərini artırmalıdırlar. Ümummilli lider Heydər Əliyevin nəzəri və siyasi irsi öyrənilməli, mütaliə mədəniyyəti gücləndirilməlidir. Yeni üzvlər qəbul edilmədən partiya işi genişlənə və inkişaf edə bilməz. Partiya üzvlüyünə namizədlər diqqətlə seçilməlidir. İlk partiya təşkilatları buna diqqət etməli və unutmamalıdırlar ki, Yeni Azərbaycan Partiyası əqidə partiyasıdır. Partiyaya yeni qəbul edilmiş üzvlərlə sistemli iş aparılmalıdır. Partiyanın yaranma tarixi, məramı, onun yaradıcısı ümummilli lider Heydər Əliyevin həyat yolu, siyasi və dövlətçilik fəaliyyəti partiyaya üzv olmaq üçün müraciət edən hər bir şəxsin siyasi biliklərinin əsasını təşkil etməlidir. Partiyanın şəhər və rayon təşkilatları tabeliklərində olan ilk partiya təşkilatları ilə əlaqəni gücləndirməlidirlər.

Partiya işinin yenilənməsi zərurətindən danışan muxtar respublika təşkilatının Sədri demişdir: "Müasir cəmiyyət yeniləşməyə doğru gedir. Buna uyğun olaraq, partiya işi də yeniləşməli, partiyamızın gələcəyi hamımızı düşündürməlidir. Siyasi fəaliyyətin varisliyi təmin olunmadan partiyanın gələcəyini təmin etmək mümkün deyil. Partiyanın gələcəyinin təmin edilməsi isə xeyli dərəcədə onun sıralarına hərtərəfli dünyagörüşə malik istedadlı, vətənpərvər gənclərin cəlb olunmasından asılıdır. Buna görə də gənc və yaradıcı qüvvələrlə işi gücləndirməli, yüksək intellektli, vətənpərvər, gələcəkdə işi etibar edə biləcəyimiz lider gənclər yetişdirməliyik.

Bu gün Naxçıvan Muxtar Respublikasında gənclərin hərtərəfli yetişdirilməsi üçün bütün tədbirlər görülür. Olimpiya-idman kompleksləri, şahmat məktəbləri, gənclik mərkəzləri, elektron kitabxanalar istifadəyə verilib. Lakin açıq etiraf etmək lazımdır ki, gənclərin bu müəssisələrə cəlbi hələ də lazımi səviyyədə deyil. Partiyanın İcra Katibliyi və Heydər Əliyev adına Gənclər Birliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu ilə işini əlaqələndirməli, gənclərlə iş sahəsində birgə plana malik olmalı, onun icrasını təmin etməlidir. Partiyanın İcra Katibliyi Heydər Əliyev adına Gənclər Birliyinin də işinə, onun fəaliyyətinin gücləndirilməsinə daim diqqət göstərməli, Azərbaycançılıq, dövlətçilik, millilik və vətənpərvərlik mövzusunda tədbirlər keçirilməli, gənclərin sosial şəbəkələrdə fəallığı artırılmalıdır. Partiyanın şəhər və rayon təşkilatları qadınlarla işin təşkilinə də diqqətlə yanaşmalıdırlar. Partiya təşkilatlarının fəaliyyətində qadın üzvlərin və qadınlar şuralarının fəallığına nail olmaq qarşıda duran əsas vəzifələrdən olmalıdır. Kadr siyasətinə diqqət artırılmalı, ehtiyat kadrların hazırlanmasında qayda yaradılmalıdır. Partiyanın elmi və siyasi kadr potensialından düzgün istifadə edilməlidir".

Bildirilmişdir ki, 2014-cü ildə bələdiyyə seçkiləri keçiriləcəkdir. Buna indidən hazırlaşmaq lazımdır. Bələdiyyə seçkiləri partiya təşkilatları üçün əsas fəaliyyət sahələrindən biri olmalıdır. Bələdiyyə seçkilərinə hazırlıqla bağlı tədbirlər planı hazırlanmalı və icrası təmin edilməlidir. Aid təşkilatlarla birlikdə bələdiyyə üzvlüyünə namizədlərin müəyyənləşdirilməsinə diqqətlə yanaşılmalı, bu zaman əhali arasında nüfuzu olan şəxslərə üstünlük verilməlidir. Yeni Azərbaycan Partiyasının böyük seçki təcrübəsinin olmasına baxmayaraq, işdə arxayınçılığa yol verilməməlidir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri demişdir ki, 2014-cü ilin noyabr ayında partiyanın beşinci konfransının keçirilməsi nəzərdə tutulmuşdur. İcra Katibliyi, şəhər və rayon təşkilatları partiyanın Nizamnaməsinə və təşkilatın Əsasnaməsinə uyğun olaraq, oktyabr-noyabr aylarında konfransın keçirilməsini, o cümlədən nümayəndələrin seçilməsini təmin etməlidirlər. Kütləvi informasiya vasitələri ilə iş partiya fəaliyyətinin mühüm istiqamətlərindən biri olmalıdır. Ümummilli liderimiz Heydər Əliyev Yeni Azərbaycan Partiyasının Birinci Qurultayında partiyanın tutduğu mövqeyi dəyərləndirərək demişdi: ***"Yeni Azərbaycan Partiyası yarandığı dövrdən indiyə qədər Azərbaycanın ictimai-siyasi həyatında özünün dəyərli yerini tutubdur, bu yeri heç kəsə verməyəcək və getgedə öz yerini möhkəmləndirəcəkdir".***

"Bizim vəzifəmiz əldə olunmuş nailiyyətlərlə kifayətlənməmək, partiya-təşkilat işini daha da gücləndirmək, partiyamızın cəmiyyətdə tutduğu yüksək mövqeyi qoruyub saxlamaq, partiya işini irəli aparmaqdır", – deyən Ali Məclisin Sədri bu yolda partiya üzvlərinə uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**




***İnzibati ərazi vahidliyindən asılı olmayaraq, istənilən yaşayış məntəqəsinin inkişafı onun ümumi mənzərəsindən bəlli olur. Fərqi yoxdur, kənd və ya şəhər olsun. Yaxud əhalisinin sayı çox və ya az olsun. Sürətli inkişaf yoluna qədəm qoymuş yaşayış məntəqələrindən biri də xalqımızın qəhrəman övladının adını daşıyan Babək qəsəbəsidir. Babək qəsəbəsi ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə 35 il bundan əvvəl yaradılmış eyniadlı rayonun mərkəzidir. Ötən dövr ərzində Babək rayonu da hərtərəfli dövlət qayğısı ilə əhatə olunub, nəticədə, rayon mərkəzi Babək qəsəbəsi sürətli inkişaf yolu keçib. Elə bu yazıda da söhbətimizin əsas mövzusu əhalisi 3800 nəfərə yaxın olan Babək qəsəbəsi haqqındadır.***

Muxtar respublikamızın bütün rayon mərkəzlərində mövcud olan Heydər Əliyev prospekti Babək qəsəbəsinin də ən gözəl ünvanıdır. Prospekt boyu rayonun müxtəlif idarə, müəssisə və təşkilatları üçün yeni binalar inşa edilib. Həmin binalarda işləyənlər üçün hərtərəfli şərait yaradılıb. Burada yerləşən inzibati binaların ətrafında yaşıllıq zolaqları salınıb, ətrafda abadlıq işləri aparılıb. “Heydər Əliyev ili”ndə prospektdə daha 3 təşkilat – Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbi, rayon Qeydiyyat Şöbəsi və Dövlət Notariat Kontoru yeni binalarda fəaliyyətlərini davam etdirməyə başlayıblar.

“Muxtariyyət ili”nin ilk ayının 23-də burada yeni quruculuq ünvanları sakinlərin istifadəsinə verilib. Bu ünvanlarla bağlı məlumatlara istərdik oxucularımızla birlikdə nəzər salaq. Əvvəlcə başlayaq bu ünvanları birləşdirən avtomobil yollarından. Bildiyiniz kimi, muxtar respublikamızda yol tikintisi, mövcud yolların yenidən qurulması xüsusi əhəmiyyət daşıyan və diqqət edilən infrastruktur layihələrindəndir. İnkişafın əsas göstəricilərindən sayılan yol tikintisi adıçəkilən qəsəbəni də ağuşuna alıb, 6,4 kilometr məsafədə yol genişləndirilərək və yenidən qurularaq istifadəyə verilib. Heydər Əliyev prospektində 2850 metr və qəsəbədaxili 3550 metr uzunluğunda yeni salınmış yolda müasir işıqlandırma sistemi quraşdırılıb, suötürücü qurğu və su keçidləri tikilib.

Yenidən qurulmasına 2011-ci ildən başlanılmış rayon Mərkəzi Xəstəxanasının binası da cari ilin yeni ünvanları sırasındadır. 70 mindən yuxarı rayon sakininə xidmət göstərən xəstəxana binası 4 mərtəbədən ibarətdir. Xəstəxanada ən müasir tibbi avadanlıqlar quraşdırılıb. Burada poliklinika, ümumi stasionar, ginekologiya və doğuş, təcili və təxirəsalınmaz yardım şöbələri və hemodializ bölməsi fəaliyyət göstərir. Xəstəxananın şöbələrində müxtəlif xəstəliklərin müayinəsi və müalicəsi, cərrahiyyə əməliyyatlarının aparılması üçün hər cür şərait yaradılıb.

Orijinal memarlıq üslubunda inşa olunan binanın birinci mərtəbəsində qəbul-qeydiyyat, stomatoloji kabinələr, aptek, ginekologiya və doğuş şöbəsi, hemodializ bölməsi, rentgen, təcili və təxirəsalınmaz yardım şöbəsi üçün otaqlar yerləşir. Hemodializ bölməsində yaradılan şərait böyrək xəstəliklərindən əziyyət çəkən xəstələrə imkan verir ki, başqa ünvana üz tutmadan burada müalicə ala bilsinlər. Ginekologiya və doğuş şöbəsində yenidoğulmuşların intensiv müalicəsi üçün lazımi şərait yaradılıb. Binanın ikinci mərtəbəsində poliklinika və stasionar şöbələri, reanimasiya, cərrahiyyə və əməliyyat üçün palata və otaqlar, üçüncü mərtəbədə isə stasionar şöbənin terapiya və pediatriya bölmələri üçün palatalar, eləcə də inzibati hissə üçün otaqlar ayrılıb. İnzibati bölmədə kitabxana və kompüter otağı fəaliyyət göstərir. Kompüterlərin hər biri muxtar respublikanın səhiyyə müəssisələri arasında yaradılan lokal şəbəkəyə qoşulub. Bu da xəstəxanada aparılan müayinə və müalicələrin nəticələrinin avtomatik olaraq mərkəzə və digər səhiyyə müəssisələrinin elektron məlumat bazasına ötürülməsinə və elektron arxivdə saxlanılmasına imkan verir. Binanın zirzəmi hissəsində isə laboratoriya, yoluxucu xəstəliklər üçün izolyator, camaşırxana, yeməkxana və qazanxana yerləşir. Bütün bunlarla yanaşı, xəstəxanada müalicə və müayinə üçün ən müasir tibbi avadanlıqlar quraşdırılıb ki, bu da xəstəliklərin dəqiq diaqnozunda mühüm əhəmiyyət kəsb edir.

Qəsəbədə istifadəyə verilmiş digər bir obyekt isə rayon Tarix-Diyarşünaslıq Muzeyinin binasıdır. Bina ekspozisiya zalı, fond və iş otaqlarından ibarətdir. 1981-ci ildən fəaliyyət göstərən muzeyin fondunda 3884 eksponat qorunub saxlanılır. Müasir işıqlandırma sistemi ilə təchiz edilmiş ekspozisiya zalında rayon sənətkarlarının əl işləri, Daş, Tunc dövrlərini əks etdirən eksponatlar, qədim musiqi alətləri, milli geyimlər, bədii tikmələr, tətbiqi sənət nümunələri, zərgərlik, misgərlik, dulusçuluq məmulatları, bəzək əşyaları, toxuculuq alətləri, xalçalar, rəsm əsərləri, fotoşəkillər və sənədlər olmaqla, 300-dən çox eksponat nümayiş etdirilir. Artıq bu ünvan rayon sakinlərinin və bura yolu düşən qonaqların ziyarət etdiyi bir məkana çevrilib.

Qeyd olunan hər iki tikilinin ətrafı burada aparılmış abadlıq işlərindən öz nəsibini alıb. Ətrafda yaşıllıq zolaqları salınıb, yeni işıqlandırma sistemləri quraşdırılıb. Elə muzey binasının yaxınlığında 1941-1945-ci illər müharibəsi və Azərbaycan Vətən müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış abidə də bu gözəlliyin işığında daha əzəmətli görünür.

Əlbəttə, yeni istifadəyə verilmiş bu obyektlər qəsəbəyə gözəllik bəxş etməklə yanaşı, burada yaşayan sakinlərin də sevincinə səbəb olub. Rayon ziyalısı Vaqif Hüseynov qəsəbədə aparılan quruculuq işlərindən ürəkdolusu danışır: “Rayonumuzun hər bir səmtində, eyni zamanda bu qəsəbədə görülmüş işlər hər kəsi sevindirir. Ötən ildə də, bu il də burada xeyli işlər görülüb. Yollarımız genişləndirilib, yeni asfalt salınıb. İldən-ilə qəsəbədə istifadəyə verilən yeni tikililər buranın gözəlliyini daha da artırır. Çalışmalıyıq ki, bu gözəlliyi qoruyub saxlaya bilək. Çünki bu, bizim həm də mənəvi borcumuzdur”.

Qəsəbə sakini Bülbül Əşrəfovanın dediklərindən: “Artıq neçə illərdir ki, mütəmadi olaraq muxtar respublikamızın hər tərəfində yeni tikililərin istifadəyə verilməsinin şahidi oluruq. Bu tədbirlərin yaşadığımız Babək rayonunda da həyata keçirilməsi hər birimizi sevindirir. Axı kim yaşadığı yerin təmiz, hərtərəfli şəraitlə təmin olunmasını istəməz. Dövlətimizin bizə bəxş etdiyi bu rahat şəraiti gördükcə ürəyimiz dağa dönür. Çalışırıq ki, biz də bunun əvəzini öz əməyimizlə, sevgimizlə ödəyək”.

Digər qəsəbə sakini İsmayıl Abbasov da yaşadığı ərazinin gözəlləşməsini böyük iftixar hissi ilə dilə gətirir: “Bu gün muxtar respublikada elə bir sahə yoxdur ki, orada inkişaf getməsin. Ancaq bizim üçün daha qürurvericisi odur ki, görülən bütün işlərin kökündə xalqa xidmət, həm də layiqincə xidmət etmək məqsədi dayanır. Bir zamanlar bu qəsəbə adi kənddən belə seçilmirdi. Ancaq indi qəsəbəmiz şəhər timsalıdır! Qəsəbədə hara getsən, orada bir yeniliyin şahidi olursan. Hər tərəf abadlaşıb, yaşıllıqlar salınıb, yollar, küçələr təmizliyi ilə göz oxşayır. Gecələr isə qəsəbə ayrı bir gözəlliyə qovuşur. Bütün bunlar insanlarda sabaha olan inamı bir daha artırır. Qoy bu gözəllikdən hər yerə pay düşsün”.

***Bəli, Babək qəsəbəsi bir yaşayış məntəqəsi, həm də rayon mərkəzi olaraq gündən-günə dəyişir, yeniləşir. Bu yeniliyin fonunda isə dövlətimizin gücünü və bu gücü gözəlliyə çevirməyi bacaran zəhmətsevərliyi görmək çətin deyil...***

**Səbuhi HƏSƏNOV**

***Ordubad Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı zamanı qanunvericiliyin tələbləri mövzusunda yığıncaq keçirilib.***

## Ədliyyə Nazirliyi Ordubad rayonunda yığıncaq keçirib



Tədbiri giriş sözü ilə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açaraq rayonda dövlət qurumları üçün yaradılan müasir şərait barədə danışıb, yaradılan şəraitin müqabilində rayonun kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrindən nümunəvi iş tələb olunduğunu deyib.

Yığıncaqda Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, ikinci dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək qeyd edib ki, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatının aparılmasını, qanunvericiliyin tələblərinə uyğunluğunu öyrənmək məqsədilə mütəmadi olaraq nazirlik tərəfindən rayon icra hakimiyyətləri ilə birlikdə yoxlamalar həyata keçirilib. Bu yoxlamalar zamanı aşkar olunan nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülüb və rayon icra hakimiyyətləri məlumatlandırılıblar. Ordubad rayonunun icra nümayəndəlikləri tərəfindən doğum, nikah və ölümün qeydiyyatı aparılır ki, əməliyyatlar 29 icra nümayəndəliyi tərəfindən rəsmiləşdirilir. 2009-2013-cü illər ərzində Ordubad rayonunun icra nümayəndəlikləri tərəfindən doğum, nikah və ölümün qeydiyyatı ilə bağlı 3 min 836 əməliyyat aparılıb, onlardan 658 əməliyyat 2013-cü ilin payına düşüb. Hüquqi maarifləndirmə tədbirləri olaraq 2009-2013-cü illər ərzində Ordubad rayon icra nümayəndələri üçün 14 dəfə seminar təşkil olunub. Ordubad rayonunun icra nümayəndəliklərində vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vəziyyətinin öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 10 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün icra nümayəndələrinə hərtərəfli metodik köməkliklər göstərilib.

Ədliyyə naziri bildirib ki, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sistemi insan hüquqlarının qorunmasında, sosial-müdafiə proqramlarının həyata keçirilməsində, eləcə də ailə sağlamlığının təmin edilməsində, əhalinin mənəvi sağlamlığının müdafiəsində və cəmiyyətdə mövcud olan bir çox digər mühüm hüquqi və sosial proseslərdə vacib rol oynayır. Qeydiyyat və notariat sahəsində aparılan əməliyyatlar zamanı qanunvericiliyin tələblərinə əməl olunması, əhaliyə bu sahədə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi, nöqsanlara yol verilməməsi, aparılan əməliyyatlar zamanı kargüzarlıq qaydaları ilə bağlı qanunvericiliyin tələblərinin gözlənilməsinin təmin edilməsi qarşıya qoyulan əsas vəzifələrdəndir. Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınmasına görə dövlət rüsumu ödənildikdən sonra Qeydiyyat Şöbəsinin rəisi və əməliyyatları aparan icra nümayəndəsi müvafiq əməliyyatı rəsmiləşdirməli və bu zaman müvafiq qanunvericiliyin, Ailə Məcəlləsinin, kargüzarlıq qaydalarını müəyyən edən təlimatın tələblərinə riayət etməlidir. Bununla əlaqədar müraciət edənlərin şəxsiyyəti müəyyənləşdirilməli, əməliyyatlar rəsmiləşdirilən zaman vətəndaşların şəxsən iştirakı təmin olunmalıdır.

Sonda tədbir iştirakçılarını maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Səbuhi HÜSEYNOV**

***Ölkəmizdə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və əhalinin maddi rifahının daha da yaxşılaşdırılması məqsədilə sənaye məhsulları istehsalı sektoruna xüsusi önəm verilir. Muxtar respublikamızda da bazar iqtisadiyyatının tələblərinə uyğun sahibkarlıq mühiti formalaşdırılır, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi məqsədilə dövlət maliyyə dəstəyi göstərilir. Bunun nəticəsidir ki, özəl sektorun Ümumi Daxili Məhsuldakı payı ilbəil artır.***

## “Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi”ndə yeni çeşidlərdə məhsul istehsalına başlanılıb



Naxçıvan şəhərində fəaliyyət göstərən “Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti də son illər yaradılan sənaye müəssisələrindəndir.

Müəssisədə keyfiyyətli müxtəlif meyvə şirələri, meyvə quruları, şərab, halva istehsal olunur. Müəssisənin illik istehsal gücü 120 dekalitr meyvə şirələri və şərab, 180 ton şirniyyat məhsullarıdır. Burada İtaliya və Almaniya istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Naxçıvanda yetişdirilən meyvələrdən tam gigiyenik qaydada yüksəkkeyfiyyətli müxtəlif həcm və çeşidlərdə alma, ərik, şaftalı, gilənar, üzüm və qarışıqtərkibli nektarlar istehsal edilir. Həmin məhsullar “Badamlı” əmtəə nişanı ilə satışa çıxarılır.

Diyarımızın ən qədim sahələrindən biri olan üzümçülüyün inkişaf perspektivləri nəzərə alınaraq qurulan şərab emalı sahəsində istehsal prosesi tam avtomatlaşdırılıb. Müəssisədə istehsal olunan 4 çeşiddə – kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları “Mirvari” və “Qızıl damla” adları ilə satışa çıxarılır. Cəmiyyət həmçinin 3 çeşiddə müxtəlif çəki və formalarda küncüdlü halva istehsalı ilə də məşğuldur. Əsasən, sadə, kakaolu və qarışıq növdə istehsal olunan halva yüksək keyfiyyətə malikdir. Çərəzqovurma və paketləmə sahəsində də texnoloji proseslərə ciddi əməl olunur, günəbaxan, qabaq, noxud, püstə və qarışıq çeşidli çərəzlər təmizlənib qovrularaq 90 və 200 qramlıq paketlərdə qablaşdırılır.

Müəssisədə 2011-ci ilin iyul ayından yeni istehsal sahəsinin – meyvə nektarlarının karton taralara qablaşdırılması layihəsinin həyata keçirilməsinə başlanılıb. İstehsal sahəsi üçün yeni bina inşa olunub və burada İsveçin “Tetra Pak” firmasının istehsal gücü saatda 7 ton 1 litrlik və 1600 litr 200 millilitrlik taralar olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. 2012-ci ilin mart ayından isə istehsala başlanılıb. Nəfis tərtibatla bəzədilmiş karton taraların üzərində Azərbaycan, ingilis və rus dillərində məhsulun istehsal və son istifadə tarixi, tərkibi, istifadə qaydası, saxlanma şəraiti, standart göstəriciləri və mənşəyi haqqında məlumatlar göstərilir.

Daxili bazarın tələbatına uyğun yeni çeşidlərdə yerli ərzaq məhsullarının istehsalı ötən il də diqqət yetirilən sahələrdən olub, tahin (küncüd yağı) və bəhməz (doşab) istehsalına başlanılıb. Onu da qeyd edək ki, yerli xammaldan hazırlanan məhsullar yüksəkkeyfiyyətli qida məhsulu olmaqla yanaşı, həm də müalicəvi əhəmiyyətə malikdir. Hazırda həmin məhsullar sınaq məqsədilə istehsal olunur. Gələcəkdə müəssisənin istehsal gücünün artırılması və xarici bazara çıxarılması nəzərdə tutulur.

Müəssisədə istehsal olunan məhsulların xammal ehtiyatı, əsasən, yerli sahibkarlardan alınır ki, bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməməsinə öz müsbət təsirini göstərir.

Qeyd edək ki, istehsal olunan məhsullar ölkəmizin digər regionlarında da satışa çıxarılır, xarici ölkələrə ixrac olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. İstehsal olunan məhsulların xarici bazara çıxarılması üçün müəssisədə möhkəm baza yaradılıb, bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin və ərzaq təhlükəsizliyi tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 22000-2005 və İSO 9001-2008 sertifikatlarına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb. Məlumat üçün qeyd edək ki, ötən il “Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal edilən meyvə nektarları Gürcüstan bazarına çıxarılıb.

**Kərəm HƏSƏNOV**

# “Naxçıvan tarixi” çoxcildliyinin birinci cildinin təqdimat mərasimi keçirilmişdir

***Fevralın 15-də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində “Naxçıvan tarixi” çoxcildliyinin birinci cildinin təqdimat mərasimi keçirilmişdir.***

Təqdimat mərasimini AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq “Naxçıvan tarixi” çoxcildliyinin birinci cildinin hazırlanması sahəsində görülən işlər və qarşıda duran vəzifələrdən danışaraq qeyd etmişdir ki, çoxcildliyin 451 səhifədən ibarət olan birinci cildi qısa müddətdə, olduqca gərgin və məhsuldar fəaliyyət sayəsində ərsəyə gəlmişdir. Bu cild Naxçıvanın ən qədim zamanlardan başlayaraq XVIII əsrin 40-cı illərinədək olan böyük bir dövrünü əhatə edir. 7 fəsildən ibarət olan kitabda 500-dən çox mənbə və ədəbiyyatdan istifadə edilmiş, Naxçıvanın bu dövrə aid tarixi-siyasi xronologiyası yaradılmışdır. Kitabda 20-yə yaxın xərita, arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş 100-ə yaxın maddi-mədəniyyət nümunələrinin, 60-dan çox kitabə və tarixi abidənin fotoşəkli yerləşdirilmişdir.

AMEA Naxçıvan Bölməsinin sədri “Naxçıvan tarixi” çoxcildliyinin birinci cildinin hazırlanması ilə bağlı bütün prosesləri şəxsi nəzarətinə götürdüyünə və yüksək şəkildə himayə etdiyinə görə çoxcildliyin müəllifləri adından, bütövlükdə, muxtar respublikanın elmi ictimaiyyəti adından muxtar respublika Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov təqdimat mərasimində çıxış edərək demişdir ki, bu kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə” 2012-ci il 6 avqust tarixli Sərəncamına əsasən çap olunmuşdur. Muxtar respublika rəhbərinin imzaladığı Sərəncamda qeyd olunur ki, ***“Azərbaycanın Naxçıvan Muxtar Respublikası böyük bir tarixi keçmişə malikdir. Aparılmış elmi tədqiqatlar sübut edir ki, Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Bu ərazi antik, orta əsrlər və müasir mədəniyyət nümunələri və tarixi abidələrlə – ilk insanların yaşadığı mağaralar, qədim yaşayış yerləri, qədim şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir”.***

Bu zənginlik öz-özünə yaranmamışdır. Onun yaradıcısı olan Azərbaycan türkləri min illər boyu bu ərazidə ardıcıl həyat sürmüş, özlərindən sonra Ovçular təpəsi və Qazma mağarası kimi ilk insan məskənlərini, eradan əvvəl 5-7-ci minilliklərin yadigarı olan Əshabi-Kəhf və Gəmiqaya kimi qədim mədəniyyət və dəyərlər panteonunu, 5 min il bundan əvvələ aid edilən və mükəmməl sivilizasiya göstəricisi olan Naxçıvan şəhər mədəniyyətini qoyub getmişlər. Lakin bu mədəniyyət, əcdadlarımız tərəfindən yaradılan bu qədim tarix lazımi səviyyədə öyrənilməmişdir. Uzun bir dövr ərzində Azərbaycan tarixində yol verilmiş boşluqların, nöqsan və çatışmazlıqların aradan qaldırılması vacibliyindən danışan ümummilli lider Heydər Əliyev demişdir: ***“Biz artıq müstəqil dövlət olaraq tariximizi düzgün, doğru, kənar təzyiqlərdən azad şəkildə özümüz müəyyən edirik. Həm bu gün, həm də gələcək nəsillər üçün Azərbaycan tarixinin bu hissəsini yaradıb həm öz ictimaiyyətimizə, həm də dünya ictimaiyyətinə nümayiş etdirməli, gələcək nəsillər üçün bir əsas yaratmalıyıq”.***






Naxçıvan Muxtar Respublikasında ulu öndərin irəli sürdüyü “gələcək nəsillər üçün tarixi əsas”ın yaradılması işinə 1996-cı ildən başlanmışdır. Həmin il keçirilən “Uluslararası qaynaqlarda Naxçıvan” Beynəlxalq Simpoziumu Azərbaycan tarixinin bir qolu olan Naxçıvan tarixinin öyrənilməsində mühüm mərhələ təşkil etmişdir. Simpoziumdakı proqram xarakterli çıxışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bildirmişdir ki, ***“...tariximizə, dilimizə, ədəbiyyatımıza, folklorumuza, arxeologiya və etnoqrafiyamıza dair araşdırmalar ön mövqeyə çəkilməlidir. Çünki müstəqillik dövrünə keçidin əsas xüsusiyyətlərindən biri olan milli-mənəvi özünüdərketmə prosesinin dərinləşməsi və sağlam əsaslar üzrə inkişaf etdirilməsi, ilk növbədə, xalqın öz tarixi keçmişinə, dilinə, milli ənənələrinə bələd olmasına, yiyələnməsinə zərurət doğurur... Bütün bunlar isə, ilk növbədə, Naxçıvanın yeni istiqamətdə, yeni milli ruhda və gerçək mənbələr əsasında, milli mənafe əsas götürülməklə əsl tarixinin yazılmasını meydana çıxarmalıdır. Bizə görə “Uluslararası qaynaqlarda Naxçıvan” simpoziumunun materialları ən yaxın dövrdə yazılacaq Naxçıvan tarixinin proqramı, eskizi, bəlkə də, əsas istiqaməti olacaqdır”.***

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri özünün əsas ideya rəhbəri və yaradıcısı olduğu fundamental “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanmasına hələ 1996-cı ildən başlamışdır. Həmin simpoziumdan ötən 18 il ərzində qarşıya qoyulan vəzifələrin icrası istiqamətində Naxçıvan Muxtar Respublikasında xeyli iş görülmüşdür. Naxçıvanın öyrənilməsi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi yaradılmış, muxtar respublika tarixinin ayrı-ayrı dövrlərinə həsr olunmuş elmi simpozium və konfranslar keçirilmişdir. Muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri pasportlaşdırılaraq əldə olunmuş materiallar əsasında “Naxçıvan Abidələri Ensiklopediyası” hazırlanmışdır. İkicildlik “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan xanlığı”, “Naxçıvan tarixi atlası” kimi mühüm elmi dəyərə malik kitablar, ümumilikdə, 1200-dən çox kitab, ensiklopediya, monoqrafiya, dərs vəsaiti, broşüra, elmi məqalə və tezislər çap olunmuş, doktorluq və namizədlik dissertasiyaları müdafiə edilmişdir.

Vurğulanmışdır ki, son dövrlərdə aparılan araşdırmalar nəticəsində Naxçıvanın mədəniyyəti, tarixi və abidələri, arxeologiya və etnoqrafiyası, təbii sərvətləri müxtəlif tədqiqatların predmetinə çevrilmişdir. Yeni elmi istiqamətlər müəyyənləşdirilmiş və bir sıra nəticələr əldə olunmuşdur. Bununla yanaşı, Naxçıvan tarixinin müxtəlif dövrlərinə və problemlərinə dair xeyli sayda elmi-tədqiqat materiallarının nəşr olunması, keçirilmiş arxeoloji ekspedisiyalar nəticəsində mühüm elmi dəyərə malik olan materialların əldə edilməsi də “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması üçün əsas yaratmışdır. Və bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2012-ci il 6 avqust tarixli Sərəncamla “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanmasını qərara almışdır.

Kitab hazırlanarkən ilk dəfə olaraq Naxçıvan əhalisinin etnogenez tarixi, ilkin məskunlaşma və şəhər mədəniyyəti yerləri ilə bağlı sistemli tədqiqat işləri aparılmışdır. Qədim və orta əsrlərə aid ən yeni elmi istiqamət və arqumentlər, müstəqillik dövründə aparılmış arxeoloji tədqiqat materialları ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir. Qeyd olunanlar göstərir ki, “Naxçıvan tarixi” çoxcildliyində bəhs edilən hər bir hadisə və tarixi dövrün arxasında ciddi elmi fakt və dəlillər, konkret arxeoloji materiallar dayanır. Bu isə onun elmi tutumunu və dəyərini daha da artırır. Şübhə yoxdur ki, “Naxçıvan tarixi” kitabı muxtar respublika elmi ictimaiyyəti tərəfindən maraqla qarşılanacaq, təhsil müəssisələri, eləcə də mütəxəssislər və tədqiqatçılar ondan ilkin və obyektiv mənbə kimi faydalana biləcəklər. Əcəmi Nəşriyyat Poliqrafiya Birliyində nəfis tərtibatda çap olunmuş “Naxçıvan tarixi” kitabı muxtar respublikada tarix elminin ciddi nailiyyəti, Azərbaycan tarixşünaslığına qiymətli töhfədir.

Əli Həsənov kitabı Azərbaycanın bu qədim torpağının tarixinin, arxeologiya və etnoqrafiyasının, folklorunun və milli dəyərlərinin araşdırılması sahəsində muxtar respublika rəhbəri cənab Vasif Talıbov tərəfindən müəyyənləşdirilmiş ardıcıl və sistemli işin, düzgün elmi istiqamətin bəhrəsi kimi dəyərləndirmiş, “Naxçıvan tarixi” çoxcildliyinin birinci cildinin hazırlanmasında əməyi olanların hamısına muxtar respublika Ali Məclisi Sədrinin təşəkkürünü çatdırmış və “Naxçıvan tarixi” kitabının nəşri münasibətilə elmi ictimaiyyəti, ziyalıları təbrik etmişdir.

Sonra kitabın hazırlanmasında əməyi olanlara Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatları təqdim olunmuşdur.

Mərasimdə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, professor Fəxrəddin Səfərli, Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və Naxçıvan Müəllimlər İnstitutunun prorektoru, professor Akif İmanlı çıxış edərək “Naxçıvan tarixi” çoxcildliyinin birinci cildinin elmi əhəmiyyətindən və tarix elminin inkişafındakı rolundan bəhs etmişlər.

Sonda “Naxçıvan tarixi” çoxcildliyinin birinci cildi müəlliflərə təqdim olunmuşdur.

**“Şərq qapısı”**

# Muxtar respublikada fəaliyyət göstərən teleradiolarda ilin yekunları müzakirə olunmuşdur

***Fevralın 15-də Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının, “Kanal 35” televiziyasının və “Naxçıvanın səsi” radiosunun 2013-cü ildəki fəaliyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilmişdir.***

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair çıxış edərək demişdir ki, ötən il televiziya və radioda kənar müəlliflərlə əməkdaşlıq genişləndirilmiş, yeni gənc əməkdaşlar işə götürülmüş, nitq mədəniyyəti üzrə kurs təşkil edilmiş, televiziyada bədii şura yaradılaraq fəaliyyəti təmin olunmuşdur. Kollektiv muxtar respublikada elan edilmiş “Heydər Əliyev ili”ni uğurla başa vurmağa çalışmışdır. Ötən il ictimai-siyasi, sosial-iqtisadi və mədəniyyət məsələləri ilə bağlı proqramların, eləcə də müxtəlif sahələr üzrə aparılan jurnalist araşdırmalarının səviyyəsini yüksəltmək üçün televiziya əməkdaşları peşəkarlıq göstərməyə çalışmış, televiziya və radioda 2900-ə yaxın veriliş, 3500-ə yaxın xəbər, çarx və keçidlər, yeni sənədli və televiziya filmləri hazırlanaraq efirə verilmişdir.

Sahil Tahirli görülən işlərlə yanaşı, hələ də işdə müəyyən nöqsanlara yol verildiyini bildirmiş, montajın zəifliyi, faktların hadisə yerlərindən dəqiq götürülməməsi, qrafika və rejissor işinin, o cümlədən aparıcı hazırlığının və əməkdaşların yaradıcılıq axtarışlarının tələb olunan səviyyədə olmadığını bildirmişdir.



Sonra Radio Televiziya Ötürücü Mərkəzin Televiziya və Radio Verilişləri redaksiyasının baş redaktor əvəzi İlkin Rzayevin çıxışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov iclasda çıxış edərək demişdir ki, kütləvi informasiya vasitələri cəmiyyət həyatının bütün sahələrinə fəal təsir imkanlarına malikdir. Ona görə də ölkəmizdə kütləvi informasiya vasitələrinin, o cümlədən televiziya və radioların inkişafına xüsusi diqqət göstərilir. Ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə ikinci qayıdışından sonra müstəqil dövlətçilik və milli maraqlar çərçivəsində həyata keçirilən tədbirlərin mühüm bir istiqaməti də teleradioların fəaliyyətinin genişləndirilməsinə yönəldilmiş, kütləvi informasiya vasitələrinin maddi-texniki və qanunvericilik bazası təkmilləşdirilmiş, yeni reallıqlar nəzərə alınaraq konkret tədbirlər görülmüşdür. Qeyd etmək kifayətdir ki, 1993-cü ildən ötən dövr ərzində ölkəmizdə bu sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 40-a yaxın normativ-hüquqi akt qəbul olunmuş, müstəqil və ictimai televiziya kanalları açılaraq fəaliyyətə başlamışdır. Bu istiqamətdə Naxçıvan Muxtar Respublikasında da ardıcıl tədbirlər həyata keçirilir. Hazırda muxtar respublikada 2 televiziya və 2 radio fəaliyyət göstərir, rəqəmsal əsasda 12 televiziya və 9 radio kanalının yayımı həyata keçirilir. Bundan başqa, müxtəlif yayım paketlərinə malik olan kabel televiziyası və İP televiziya fəaliyyətə başlamışdır.

Göründüyü kimi, muxtar respublikanın efir məkanında televiziya tamaşaçılarının və radio dinləyicilərinin seçimi üçün geniş imkanlar vardır. Belə bir şəraitdə dövlətə məxsus televiziya və radioların üstün istiqamətlərinin təmin edilməsi, ictimaiyyətə təsir imkanlarının və fəaliyyətlərinin gücləndirilməsi diqqət mərkəzində saxlanmış, maddi-texniki bazalar gücləndirilmişdir. Bu sahədə görülən işlər göz qabağındadır. Muxtar respublika televiziya və radioları sürətli yeniləşmə mərhələsinə qədəm qoymuşdur. Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin binası yenidən qurulmuş, dövlət teleradiosunun ayrıca kanalla yayımı təşkil olunmuş, gündəlik verilişlərin həcmi artırılmışdır. Komitədə ən son texnologiya məhsulu olan yüksəkkeyfiyyətli rəqəmsal teleradio avadanlıqları alınıb quraşdırılmışdır. Dövlət televiziyasına sənədli və televiziya filmlərinin hazırlanması üçün kompleks avadanlıqlar alınıb verilmiş, redaksiyalar audio yazı aparatları, kompüter və televizorlarla, eləcə də çəkiliş üçün nəqliyyat vasitələri ilə təmin olunmuşlar. Muxtar respublikada “Naxçıvanın səsi” radiosunun və “Kanal 35” televiziyasının yaradılması da əlamətdar hadisəyə çevrilmiş, bu kanalların fəaliyyəti üçün müvafiq şərait yaradılmışdır. Dövlət televiziyasında olduğu kimi, “Kanal 35” televiziyasında da virtual studiya fəaliyyətə başlamış, montaj və studiya kompüterləri, müasir işıqlandırma sistemləri alınıb quraşdırılmışdır. Bundan başqa, yeni düşüncə tərzi ilə işləməyi bacaran kadrların seçilib yerləşdirilməsi və rəhbərlikdə müvafiq kadr dəyişikliklərinin aparılması da diqqət mərkəzində saxlanmış, muxtar respublikanın efir məkanında dövlət siyasətinin təmin olunması məqsədilə Televiziya və Radio Şurası yaradılmışdır. Teleradio işçilərinin əməyinin qiymətləndirilməsi, onların Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, orden və medallara layiq görülməsi, müxtəlif fəxri adlarla təltif olunmaları da göstərilən qayğının ifadəsidir. 2013-cü il də daxil olmaqla əvvəlki dövrlər ərzində muxtar respublika rəhbəri cənab Vasif Talıbovun himayəsi ilə həyata keçirilən tədbirlər bütün istiqamətlər üzrə teleradioların fəaliyyətinin gücləndirilməsinə, işin səmərəliliyinin artırılmasına yönəldilmişdir.

2014-cü il yanvarın 30-da “2013-cü ilin yekunları və qarşıda duran vəzifələr”lə bağlı Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən müşavirədə Ali Məclisin Sədri cənab Vasif Talıbov il ərzində görülmüş işləri təhlil edərək diqqəti yol verilmiş nöqsan və çatışmazlıqlara yönəltmiş, kütləvi informasiya vasitələrinin də onlar üçün yaradılmış şəraitdən istifadə edə bilmədiklərini qeyd edərək demişdir: ***“Teleradio və qəzetlərdə materiallar hazırlanarkən faktlar ciddi araşdırılmır, qeyri-obyektiv yanaşma halları müşahidə olunur. Teleradiolarda bədii şuraların yaradılmasına baxmayaraq, onların fəaliyyəti hiss edilmir... Aktual mövzularda... yazılar az hazırlanır”.***

Əli Həsənov yol verilən nöqsanlardan və qarşıda duran vəzifələrdən danışaraq demişdir: “İl ərzində aparılan monitorinqlərin təhlili göstərir ki, televiziya və radiolarda ən müasir texnologiyaların alınıb quraşdırılması nəticəsində yeni imkanların yaranmasına baxmayaraq, jurnalistlərin yaradıcılıq axtarışları bu imkanlara cavab vermir. Peşəkarlıq istənilən səviyyədə deyil.

*Ardı 4-cü səhifədə*

Tamaşaçı və dinləyici auditoriyasının informasiyaya artan tələbatı dolğun şəkildə ödənilmir. Bu gün açıq peyk məkanına və ya xarici auditoriyaya asanlıqla təqdim oluna biləcək veriliş və proqramlar çox azdır. Bunun bir sıra səbəbləri var. Əsas səbəb isə televiziya və radiolarda fəaliyyət göstərən redaksiyaların öz işlərini qarşıya qoyulan tələblər səviyyəsində qura bilməməsidir. Xüsusilə baş redaktorların veriliş mətnlərini zəif redaktə etmələri, redaksiya əməkdaşları ilə qarşılıqlı yaradıcılıq müzakirələri aparmamaları, son nəticədə, tele və radio materiallarının keyfiyyət amilinə ciddi təsir göstərir. Açıq-aşkar görünür ki, əməkdaşlar mövzu seçimində çətinlik çəkirlər.

Teleradiolarda proqram siyasəti vacib şərtlərdən olsa da, buna lazımi diqqət yetirilmir. Efir daha çox müxtəlif televiziya və radio kanallarının hazır məhsulları ilə yüklənir. Aparılan təhlillər göstərir ki, televiziyaların il ərzində təqdim etdikləri materialların 60-70 faizi öz məhsulları deyil. Televiziya və radiolar vaxt doldurmaq prinsipləri ilə yox, vaxtdan səmərəli istifadə prinsipləri ilə fəaliyyət göstərməlidirlər. “Kanal 35” televiziyasında muxtar respublikadan bəhs edən materialların illik həcmi artırılmalıdır. Bunun üçün dövlət televiziyasının məhsulu olan sənədli və televiziya filmlərinə də müraciət oluna bilər. Lakin bu filmlər peşəkarlıqla hazırlanmalı, əməkdaşlarla yanaşı, kənar mütəxəssislərin də yaradıcılıq imkanlarından istifadə edilməlidir. Nəzərə almaq lazımdır ki, sənədli film bir dəfə nümayiş üçün yox, uzun bir dövr ərzində tamaşaçı tələbatının ödənilməsi üçün nəzərdə tutulur. Başqa bir nöqsan teleradiolarda hələ də ünvanlılığın təmin olunmamasıdır. Xüsusilə də səhər saatlarında verilən teleradio materiallarında mövzu pərakəndəliyi və ünvansızlıq müşahidə edilir. Teleradio rəhbərləri və bədii şuralar, birinci növbədə, keyfiyyətin yüksəldilməsinə çalışmalıdırlar. Ötən dövrdəki fəaliyyət bir daha göstərir ki, bu sahədə nöqsanlar qalmaqdadır. Ədəbi dil normalarının qorunmasına, verilişlərin yaradıcılıq keyfiyyətinə, mövzu seçiminə, tamaşaçı və dinləyici auditoriyasının nəzərə alınmasına ciddi riayət olunmalı, bədii şuralar ictimai nəzarətçi kimi öz funksiyalarını doğrultmalıdırlar”.

Kollegiya iclasında radioların fəaliyyəti də təhlil olunmuş və bildirilmişdir ki, verilişlərdə araşdırma, təhlil, jurnalist yanaşması hiss olunmur. Televiziyalardan fərqli olaraq, radiolarda görüntü olmadığı üçün əsas iş aparıcıların təqdimatından asılıdır. Bu mənada radio efirində peşəkarlıq, səlis və aydın nitq daha çox ön plana çəkilir. Dövlət radiosunda və “Naxçıvanın səsi” radiosunda bu sahədə ciddi boşluqlar vardır. Aparıcı hazırlığı aşağı səviyyədədir. Eyni zamanda radiolarda musiqi tərtibatçılarının işi də düzgün qurulmayıb. Verilişlərin mövzusuna uyğun fon musiqiləri seçilmir, efirə bayağı konsert blokları təqdim olunur. Bütövlükdə, istər dövlət televiziya və radiosunda, istərsə də “Kanal 35” televiziyasında və “Naxçıvanın səsi” radiosunda muxtar respublikanın həyatı lazımi şəkildə işıqlandırılmır, görülən işlərin mahiyyəti peşəkar dildə açıqlana bilmir. Nöqsanlara yol verilir. Bu, ssenarilərdən tutmuş aparıcıya, rejissora, kino operatoruna, montaja, musiqi və qrafik tərtibata qədər bütün proseslərdə özünü göstərir.

Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası da öz fəaliyyətini tələb olunan səviyyədə qura bilməmişdir. Şura televiziya və radiolarla çevik və məhsuldar iş prinsipinə malik deyil. Proseslərə lazımi şəkildə nüfuz edə bilmir. Qarşıdakı dövrdə teleradio şurası fəaliyyətini gücləndirməli, əməkdaşlar qanunvericilik bazasını ətraflı öyrənməli, öz vəzifə və səlahiyyətlərinə düzgün əməl etməli, aylıq fəaliyyətlə bağlı monitorinqlər düzgün hazırlanmalı, teleradiolara ümumi işə köməklik göstərilməlidir. İstər teleradiolar, istərsə də Televiziya və Radio Şurası öz fəaliyyətlərində ciddi dönüş yaratmalı, cəmiyyətin, tamaşaçı və dinləyicilərin maraqlarına xidmət edən efir və tənzimləmə siyasəti həyata keçirilməlidir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 2014-cü il yanvarın 30-da keçirilmiş müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov kütləvi informasiya vasitələrinin vəzifələrindən danışaraq demişdir ki, ***“Kütləvi informasiya orqanları qədim diyarımızın ictimai-siyasi həyatında baş verən köklü dəyişikliklərin, irimiqyaslı quruculuq tədbirlərinin salnaməçisinə çevrilməli, jurnalistlər gənc nəsildə vətənpərvərlik hisslərini gücləndirməli, teleradiolarda ədəbi dil normaları qorunmalıdır”.***

Ali Məclis Aparatının rəhbəri muxtar respublika rəhbərinin müəyyən etdiyi vəzifələrin icrası istiqamətində fəaliyyətdə kollektivlərə uğurlar arzulamışdır.

İclasın sonunda televiziya və radioların yanvar ayı üzrə aparılan monitorinqlərinin müzakirəsi olmuşdur.

**“Şərq qapısı”**

## 3 xalı 3 qolla qazanan “Araz-Naxçıvan”

***Futbol üzrə Azərbaycan I divizionunun lideri “Araz-Naxçıvan” futbol klubu növbəti qələbəsini qazanıb. Çempionatın ikinci dövrəsinin ilk “ev” matçında qırmızı-ağlar Qusarın “Şahdağ” komandasını qəbul ediblər. Gərgin mübarizə şəraitində keçən qarşılaşma muxtar respublika təmsilçisinin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Bununla, cari mövsümdə 15-ci qələbəsini bayram edən Naxçıvan təmsilçisi ən yaxın rəqibini 7 xal qabaqlamağı bacarıb.***



### *İkinci dövrəyə qələbə ilə başladıq*

Əvvəlcə onu qeyd edək ki, I divizionun 16-cı turunda “Araz-Naxçıvan” səfərdə “Bakılı”nın qonağı olmuşdu. Zirə qəsəbəsindəki Olimpiya-İdman Kompleksinin stadionunda keçirilən matç komandamız üçün uğurlu alındı. Belə ki, baş məşqçi Əsgər Abdullayevin meydana buraxdığı futbolçular elə oyunun taleyini ilk hissədəcə vurduqları bir qolla həll etdilər. Bəxtiyar Soltanovun 12-ci dəqiqədə vurduğu mükəmməl qol cari mövsümdə ən baxımlı qollar siyahısına düşməklə yanaşı, həm də komandamıza vacib olan 3 xalı qazandırdı.

Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən “Şahdağ” matçı isə böyük əhəmiyyət kəsb edirdi. Qusar təmsilçisini məğlub etməklə komandamız uzun marafonda daha bir çətin səddi aşmış olacaqdı.

Baş məşqçi Əsgər Abdullayev doğma arenada keçirilən oyunda meydana fərqli heyət çıxarmışdı. Qırmızı-ağların düşərgəsinə yeni qoşulmuş Əziz Hüseynov və Ruslan Zamanov əsas heyətdə meydana çıxmışdısa, Azər Məmmədov, Tərlan Xəlilov və Elvin Ağamalov ehtiyat oyunçular skamyasında əyləşərək oyuna daxil olacaqlarını gözləyirdilər. Ötən turu cəza səbəbindən buraxmalı olan Ruslan Abıyev və David Canıyev bu dəfə əsas heyətdə yerlərini almışdılar. 3-6-1 taktikası ilə meydana çıxan “Araz-Naxçıvan” komandası əsas Davidə güvənməklə yanaşı, həmçinin cinahlarda Elmin Çobanov və Bəxtiyar Soltanovun da sürətli reydlərinə bel bağlamışdı.

### *90 illiyə hədiyyə*

Matç başlamazdan öncə Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar olaraq, futbolçularımız əllərində böyük bir pankartla meydana daxil oldular. Həmçinin “Araz-Naxçıvan” “Muxtariyyət ili”ndə forma dəyişikliyi etmişdi. Belə ki, qırmızı olan formanın üzərində “90+” və “Naxçıvan Muxtar Respublikası” sözləri yazılmışdı.

Oyuna hər iki komanda ehtiyatla başladı. İstər Naxçıvan, istərsə də Qusar təmsilçisi oyunun gərgin keçəcəyini öncədən bildiyindən ilk dəqiqələr kəşfiyyat xarakteri daşıdı. Referi Ramil Diniyev oyunun tempini müsbət mənada yaxşı saxlamaq üçün futbolçuları bir qədər ehtiyatla oynamağa çağırdı. Di gəl ki, 12-ci dəqiqədə baş verən hadisə hər iki komandanı pis vəziyyətdə qoydu. Belə ki, rəqibin müdafiəçisi Vüqar Əlibabayev hücumçumuz David Canıyevə qarşı bir neçə dəfə kobudluğa yol versə də, bu, hakimin diqqətindən yayındı. Lakin epizodların birində hər iki futbolçunun bir-birinə qarşı kobud rəftarı referinin səbir kasasını daşırdı və o, futbolçuları meydandan qovdu. Azlıqda qalan komandalar taktiki dəyişikliyə əl atdılar. Əvvəlcə “Araz-Naxçıvan”ın baş məşqçisi müdafiəçi Mikayıl Rəhimovu Fərman Qəmbərovla əvəzlədi. Ardınca isə Tərlan Quliyev Əziz Hüseynovun yerinə meydana daxil oldu. Bundan sonra oyunun gedişatını ələ alan muxtar respublika təmsilçisi 39-cu dəqiqədə stadiona toplaşmış fanatları coşdurmağa müvəffəq oldu. Bəxtiyar Soltanovun qarşısını kobudluqla alan rəqib müdafiəçi sarı vərəqə almaqla yanaşı, eyni zamanda komandasının qapısına cərimə zərbəsi də təyin edilməsinə səbəb oldu. Topa yaxınlaşan T.Xəlilovun asmasından sonra hamıdan yüksəyə tullanan Ruslan Abıyev mükəmməl baş zərbəsi ilə tablodakı sıfırları dəyişdi – 1:0.

İkinci hissə rəqibin aqressiv oyunu ilə başladı. Nəticədə, baş hakim R.Diniyev tez-tez əlini cibinə salmağa məcbur olurdu. Rəqibin hücumlarının qarşısını məharətlə alan qırmızı-ağlar əks hücumlarda qusarlıların qapısı ağzında təhlükəli vəziyyətlər də yaratmaq imkanı əldə edirdilər. Belə epizodların birində rəqibi müdafiə xəttində yaxalayan futbolçularımız hesab arasındakı fərqi artırdılar. Mərkəzdə topu qəbul edən Elmin Çobanov Bəxtiyar Soltanova mükəmməl ötürmə etdi. Qapıçı ilə üzbəüz qalan hücumçumuz isə ardıcıl ikinci matçında ikinci qolunu vurmaqla komandasının vacib xal qazanmasında müstəsna rol oynadı. Artıq bu qoldan sonra rahatlanan Naxçıvan təmsilçisi oyunun tempini aşağı salmağa başladı. Rəqib isə məğlubiyyətdən xilas olmağa çalışırdı. Müdafiə xəttimizin bir epizodda bir qədər qeyri-səlis oynaması qolla nəticələndi. Belə ki, sol cinahdan gələn topa yetişə bilməyən müdafiəçilərimiz “Şahdağ”ın hücumçusu Sərxan Ağayevi gözdən qaçırdılar. Nəticədə, S.Ağayev hesab arasındakı fərqi azaltdı. Bu qol sanki qonaqları ruhlandırdı və onlar daha sərt oynamağa başladılar. Belə olan halda isə referi ardıcıl sarı vərəqə göstərməkdən çəkinmədi. 80-ci dəqiqədə isə Qusar təmsilçisi meydanda azlıqda qaldı. Elmin Çobanovun qarşısını kobudluqla alan rəqib müdafiəçi meydandan qovuldu. Bundan istifadə edən “Araz-Naxçıvan” daha bir dəfə azarkeşləri coşdurmağa nail oldu. Topu müdafiəçilərdən “oğurlayan” B.Soltanov meydana yeni daxil olmuş Elgün Abbaslıya ideal ötürmə etdi. Abbaslı isə, öz növbəsində, qapının uzaq küncünü dəqiq nişan almaqla qələbənin bayram edilməsinə zəmin yaratdı – 3:1.

Bu qələbədən sonra aktivindəki xalların sayını 46-ya yüksəldən muxtar respublika təmsilçisi liderliyini davam etdirir. Komandamız növbəti oyununu səfərdə “Ağsu”ya qarşı keçirəcək.

### *Oyundan sonra fikirlər*

***Mikayıl RƏHİMOV (“Araz-Naxçıvan”ın futbolçusu):*** “Oyun istədiyimiz kimi başlamadı. Qırmızı vərəqə almağımız oyunun gedişatının da dəyişməsinə səbəb oldu. Çətin rəqib qarşısında belə əzmkar mübarizə göstərib qələbə qazandığımız üçün bütün futbolçularımızı təbrik edirəm. Sonadək mübarizə aparıb çempionluğu qeyd etmək istəyirik”.

***Bəxtiyar SOLTANOV (“Araz-Naxçıvan”ın futbolçusu):*** “Ardıcıl iki oyunda qol vurmağım, təbbi ki, sevindirici haldır. Əsas komandada kimin qol vurmağı yox, qələbə qazanmağımızdır ki, bunun da öhdəsindən layiqincə gəldiyimizi düşünürəm. Bundan sonrakı oyunlara daha ciddi hazırlaşmalı və hər oyuna final matçı kimi çıxmalıyıq. Əgər çempion olmaq istəyiriksə, bunu etməliyik. Komanda yoldaşlarımla birgə mövsümün sonunda kuboku başımız üzərinə qaldırmaq istəyirik”.

***Elgün ABBASLI (“Araz-Naxçıvan”ın futbolçusu):*** “Meydana sonradan daxil oldum və komandamın qələbə qazanması üçün əlimdən gələni etdim. Baş məşqçimiz nə vaxt şans verərsə, onu layiqincə dəyərləndirməyə çalışıram və göstərilən etimadı doğrultmaq istəyirəm. Naxçıvan Muxtar Respublikasının 90 illiyində qazandığımız bu qələbəni azarkeşlərimizə ərməğan edirik”.

✍ **Ceyhun MƏMMƏDOV**

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Naxçıvan Şəhər Şöbəsi Naxçıvan şəhərinin Tumbul kəndində tədbir keçirib. Torpaq mülkiyyətçilərini maarifləndirmək məqsədilə təşkil edilən tədbirdə müxtəlif mövzularda söhbətlər aparılıb.***

## Maarifləndirici tədbir

“Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununun müddəaları barədə məlumat verən şöbənin Fərdi uçotun təşkili sektorunun müdiri Cabir Seyidov bildirib ki, bu qanun Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilikdə nəzərdə tutulan sosial müdafiə hüquqlarının təminatı üçün zəruri məlumatların fərdi uçotunun təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən edir.

Fərdi uçot Azərbaycan Respublikası qanunvericiliyinə uyğun əmək pensiyası və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılmasıdır.

Qeyd olunub ki, dövlət sosial sığortasının həyata keçirilməsi, təkmilləşdirilməsi, əmək pensiyalarının məcburi dövlət sosial sığorta haqlarının məbləğindən və sığorta stajından asılı olaraq hesablanması üçün informasiya bazasının yaradılması, əmək pensiyası təminatı və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün staj, məcburi dövlət sosial sığorta haqlarının hesablanması və ödənildiyi əməkhaqqı və digər gəlirlər, məcburi dövlət sosial sığorta haqqı barədə məlumatların dəqiqliyinin təmin edilməsi fərdi uçotun başlıca məqsədləridir.

Tədbirdə şöbənin Gəlirlər sektorunun müdiri Rasim Seyidov çıxış edərək bildirib ki, “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında sosial sığorta sahəsində münasibətləri tənzimləyir, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

Məcburi dövlət sosial sığortası sığortaedənlər tərəfindən bütün əmək müqaviləsi üzrə işləyənlər barəsində həyata keçirilir. Bu qanunda nəzərdə tutulmuş hallarda digər şəxslər də məcburi dövlət sosial sığortasına cəlb olunurlar.

Pensiya təyinatı sektorunun məsləhətçisi Anar Eynalov “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanunu barədə məlumat verərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti 2014-cü il 3 fevral tarixdə “Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında” növbəti Sərəncam imzalayıb. Bu sərəncama əsasən, 2013-cü il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq, əmək pensiyalarının sığorta hissəsi və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində toplanan pensiya kapitalı məbləğlərinin 2014-cü il 1 yanvar tarixdən indeksləşdirilməsi nəzərdə tutulub.

Muxtar respublikamızda da əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi ilə əlaqədar ölkə Prezidentinin imzaladığı sərəncamdan irəli gələn vəzifələrin operativ icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən lazımi tədbirlər görülüb.

Tədbirdə torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Naxçıvan şəhərinin Tumbul kənd sakini İsayev Əsəd İbrahim oğlunun adına olan JN-0014 inventar nömrəli, 10307028 kodlu torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 179